AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

GƏNCƏ ŞƏHƏR İÇRA HAKİMİYYƏTİ

Gəncə Avropa Gənclər Paytaxtı – 2016

"XXI ƏSRDƏ DÜNYA ELMİNİN İNTEQRASİYA PROSESLƏRİ"

GƏNCLƏRİN BEYNƏLXALQ ELMİ FORUMU

10-14 oktyabr, 2016-cı il

GƏNCƏ/AZƏRBAYCAN

Gəncə Avropa Gənclər Paytaxtı – 2016

Hörmətli həmkarlar!

Gəncə şəhərinin 2016-cı ildə "Avropa Gənclər Paytaxtı" seçilməsi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyası Gənc Alim və Mütəxəssislər Şurası Gəncə şəhər İcra Hakimiyyəti ilə birgə 10-14 oktyabr 2016-cı il tarixlərində bu mühüm hadisəyə həsr olunan "XXI əsrdə dünya elminin inteqrasiya prosesləri" mövzusunda gənc alim və mütəxəssislərin beynəlxalq Forumunu keçirir.

Müasir qloballaşan cəmiyyətin inkişafında Azərbaycanın elmi gəncliyinin rolunu və eləcə də ölkənin gələcək inkişafında onların iştirakını və məsuliyyətini artırmaq kimi meyllər paytaxt və regionlarda yaşayan gənclərin dünyada baş verən sosial-mədəni və elmi proseslərə iteqrasiyasını zəruri edir. Bununla əlaqədar, keçirilməsi nəzərdə tutulan Forum - dünyanın müxtəlif ölkələrini təmsil edən gənclərin qlobal aktuallıq kəsb edən məsələlər, o cümlədən tarixi, dini, mədəni və s. mövzular ətrafında birgə fikir mübadiləsi aparması məqsədini daşıyır. Bundan başqa, beynəlxalq tədbirin digər mühüm məqsədi müxtəlif elmi sahələrdə fəaliyyət göstərən gənclərin dünya elminin inkişafı üçün mühüm olan elmi istiqamətlər üzrə disskusiyalarının təmin olunmasıını hədəfləyən konfransın keçirilməsidir.

Tədbirin Elmi Təşkilat Komitəsi akademik institut və təşkilatların, həmçinin elmi-istehsalat müəssisələrin və digər müvafiq qurumların gənc alim və mütəxəssislərini Forumda iştirak etməyə dəvət edir.

Qədim Gəncədə sizlərlə görüşmək arzusu ilə.....

Qədim və müasir sivilzasiyaların qovuşduğu Gəncə

Bakıdan 363 km qərbdə, Kiçik Qafqaz dağlarının şimal ətəklərində, Kür çayının sağ qolu olan Gəncəçayının hər iki sahilində və Bakı-Tiflis dəmiryolu üzərində yerləşən Gəncə şəhəri Azərbycanın ən qədim şəhəridir. Şəhərin adı orta əsr ərəb mənbələrində Gənzə, fars mənbələrində Gəncə, bəzi mənbələrdə isə Qandzak şəklində işlənir. Bəzi qaynaqlarda isə qədim şəhərin adı "gen yer" mənasında izah olunur. Rəvayətə görə Gəncənin adının "xəzinə" kimi də izahı vardır. Bəzi alimlər şəhərin yaranmasını e.ə.VII əsr, əksəriyyəti isə orta əsrlərin başlanğıcına aid edirlər. Gəncənin qədim tarixi, onun sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğuna işarə edir. 730-cu ildə ərəb-xəzər döyüşlərində xəzərlərin keçdiyi şəhərlər içərisində Gəncənin də adı çəkilir. Yarandığı tarixdən ən azı 5 dəfə yerini dəyişən Gəncə geosiyasi və strateji cəhətdən əlverişli mövqeydə yerləşdiyindən daimi yadellilərin diqqət mərkəzində olmuş və hərbi basqınlarının fəlakətli dağıntılarına məruz qalmışdır. Bu üzdən maddi-tarixi sübutlar dövrlərlə talanmışdır. Şəhər 1804-cü ildən 1918-ci ilədək Yelizavetpol adlandırılmışdır. 1918-ci ildə Gəncə adı yenidən bərpa edilsə də 22 fevral 1935-cü ildə yenidən dəyişdirilərək "Kirovabad" adlandırılmışdır. 1989-cü ildə Gəncə adı bərpa edilmişdir.

1918-ci il iyunun 16-dan sentyabrın 17-dək Gəncə şəhəri Azərbaycan Xalq Cümhuriyyətinin mərkəzi olub. Bu şəhər Azərbaycan və dünya elmi ictimayyəti və mədəniyyətinə tarixi şəxsiyyətlər, elm və mədəniyyət xadimləri bəxş edib. Gəncə zəngin mədəniyyət ocağı, Nizami və Məhsəti Gəncəvi kimi nadir incilərin torpağıdır. Gəncə Azərbaycanın əsas elm və təhsil mərkəzlərindən biri olaraq qalır, Bakıdan sonra elm və tədrisin miqyasına görə ikinci şəhəridir. Yaşı 4000 ildən çox olan Gəncə şəhərinin coğrafi mövqeyi, iqtisadiyyatı, mədəniyyəti və sosial-ictimai həyatı da xeyli zəngindir. Şəhər, həm də öz qədim tarixi, adət-ənənəsi, mətbəxi, mədəniyyəti və coğrafi mövqedən dağlarla əhatələnmiş səfalı, gəzib-görməli yerləri ilə turistik şəhərdir.

Azərbaycanın ikinci böyük şəhəri Gəncə 2015-ci ilin 21 noyabr tarixində Yunanıstanın Saloniki şəhərində keçirilən Avropa Gənclər Forumunun ümumi yığıncağında 2016-cı il üçün Avropanın Gənclər Paytaxtı müsabiqəsinin qalibi elan olunmuşdur. 2016-cı ilin Avropa gənclər paytaxtı adını qazanmaq üçün namizədliyi qəbul edilmiş Gəncə şəhəri, 12 şəhər sırasından seçilmiş 5 şəhərlə Badajoz (İspaniya), Qalvey (İrlandiya), Laquna (İspaniya), Varna (Bolqarıstan),Vilnüs (Litva) final mərhələsində mübarizə aparmışdır. Avropa Gənclər Foumunun, Avropa Şurasının, Avropa İttifaqının, bir sıra beynəlxalq qurumların, Rumıniya Milli Şurasının və Kluj-Napoka bələdiyyəsinin nümayəndələrindən təşkil olunmuş münsiflər tərəfindən Gəncə şəhəri 2016-cı ilin Avropa Gənclər Paytaxtı seçilmişdir.

Elmi Təşkilat Komitəsi

Akif Əlizadə	Təşkilat Komitəsinin sədri, AMEA-nın prezidenti, akademik
Elmar Vəliyev	Təşkilat Komitəsinin həmsədri, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı
İbrahim Quliyev	AMEA-nın vitse-prezidenti, akademik
İsa Həbibbəyli	AMEA-nın vitse-prezidenti, akademik
Fəxrəddin Qədirov	AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, akademik
Fuad Əliyev	AMEA Gəncə Bölməsinin akademik-katibi, akademik
Famin Salmanov	AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru, dosent
Elmir Vəliyev	"Gəncə Avropa Gənclər Paytaxtı – 2016" İctimai Birliyinin sədri
Naqif Həmzəyev	Yeni Azərbaycan Partiyası Gəncə Şəhər Təşkilatının sədri, millət vəkili
Pərvin Kərimzadə	Gəncə Dövlət Universitetinin prorektoru, millət vəkili
Faiq Məmmədov	Kimya üzrə fəlsəfə doktoru, dosent
Əfsun Sucayev	Kimya üzrə fəlsəfə doktoru
Aida Dadaşova	Doktorant
Orxan Abbasov	Yer elmləri üzrə fəlsəfə doktoru
Bəxtiyar Cəlilov	Tarix üzrə fəlsəfə doktoru, dosent
Suma Hüseynova	Fizika üzrə fəlsəfə doktoru
Eşqanə Babayeva	Filologiya üzrə fəlsəfə doktoru, dosent
Famil Seyfullayev	Riyaziyyat üzrə fəlsəfə doktoru, dosent
Nəzmiyyə Yigitoğlu	Filologiya üzrə fəlsəfə doktoru
Vüqar Fərəcov	Doktorant
A.E.Cəbrayılova	Təşkilat Komitəsinin elmi katibi

İşçi dili

Azərbaycan İngilis

İnteraktiv müzakirə mövzuları

- Dünyanın inteqrasiya prosesləri və Azərbaycan gəncliyi
- Qlobal multikulturalizm və Azərbaycan modeli
- Nizami Gəncəvi irsi: Azərbaycandan dünyaya

Konfransın panel mövzuları

- Uzvi, qeyri-üzvi sintez və tətbiqi kimya
- Qlobal enerji, ərzaq və ekoloji təhlükəsizlik
- Regional inkişaf və demoqrafiya
- Elmi-tarixi, dini və mədəni sivilizasiyalar
- Nanotexnologiya və tətbiqi fizika
- Elektronik riyazi tədqiqatlar və innovasiyalar
- Biotexnologiya və gen mühəndisliyi

Mədəni tədbirlər

"Welcome party"
Heydər Əliyev Mərkəzi, Nizami məqbərəsi, Alban kilsəsinə ekskursiya
Göy-göl Milli parkına ekskursiya
Göytəpə Arxeoloji Parkına elmi ekskursiya
"Qala party"

İştirakçılar üçün yaş həddi

40 yaşadək gənc alim və mütəxəssislər

Mühüm tarixlər

15 aprel 2016-cı il	Qeydiyyatın başlanması
15 avqust 2016-cı il	Forumda iştirak formasının təsdiqi və tezislərin göndərilməsi üçün son tarix
20 avqust 2016-cı il	Forumda iştirakla bağlı bildirişlərin elan edilməsi
01 sentyabr 2016-cı il	Mehmanxanın sifarışı üçün son tarix (xaricilər üçün)

Xərclərin qarşılanması

Qonaqların qarşılanması, yola salınması və konfransla əlaqədar nəzərdə tutulmuş bütün xərclər (mehmanxana, qida və s.) Təşkilat Komitəsi tərəfindən ödəniləcək.

Viza ilə bağlı müraciət

Bəzi xarici vətəndaşların Azərbaycana gəlişi üçün viza tələb olunur. Bu məsələ ilə əlaqədar yerli Azərbaycan səfirliklərinə müraciət etməyiniz məsləhət görülür. Ətraflı məlumat üçün: www.mfa.gov.az veb ünvanına müraciət edin.

Tezislərin tərtibatı üçün qaydalar

Tezislər – MS Word redaktor mətnli elektron formada qəbul olunur. Mətnin şrifti – Times New Roman (şriftin ölçüsü 12pt), sətirlər arası interval isə 1 olmalıdır. Kağızın formatı A4, mətn sahəsinin hər tərəfindən 2,5 sm saxlanılmalıdır. Tezislərin həcmi 2 səhifədən çox olmamalıdır.

Tezisin adı – səhifənin mərkəzindən boş yer buraxılmamaqla, baş hərflərlə və qalın 12pt ölçülü şriftlə yazılmalıdır.

Sonra iki interval buraxılmaqla, növbəti sətirdə müəlliflərin soyadı və insialları səhifənin mərkəzindən, kursiv 12pt ölçülü şriftlə göstərilməlidir. Müəlliflərin soyadlarından sonra sətirüstü ulduz qoyulmalıdır (əgər müəlliflər fərqli təşkilatlardandırsa).

Növbəti sətirdə (müvafiq ulduzla işarə olunan) təşkilatın tam adı, şəhər, ölkə, məruzəçinin elektron ünvanı kursiv və 12pt ölçülü şriftlə qeyd olunmalıdır.

Mətndə şəkil mütləq qaydada JPEG formatında yerləşdirilməlidir.

Azərbaycan dilində təqdim olunmuş tezisin ingilis dilində qısa xülasəsi verilməlidir.

*** Tezisin hazırlanması üçün nümunələr (azərbaycan və ingilis dilində) elanda ayrıca yerləşdirilib**

Bizimlə əlaqə

Ünvan: *Azərbaycan, Bakı şəh., H. Cavid 115*
E-mail: *forum.ganja.2016@gmail.com*
Telefon: *+ 994 12 539 25 79*
Mobil: ***+*** *994 50 334 69 39*

www.gencalimler.az